# Vətən sevgisi ordumuza parlaq qələbə qazandırdı

**Ötən il sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu ərazilərimizdə ordumuzun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Azərbaycan əks-həmlə əməliyyatı keçirməyə məcbur oldu. Bununla da İkinci Qarabağ müharibəsi başladı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimiz 44 gün çəkən döyüşlərdə öz güc-qüdrətini, şücaətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan qalib ölkə kimi müharibəni sona çatdırdı.**

Hər zaman olduğu kimi, savaş dövründə də Azərbaycan xalqı yumruq kimi birləşib dövlətimizin başçısına, ordumuza dəstək göstərdi. Müharibənin gedişində qəlbində Azərbaycan sevgisi olan hər bir vətəndaşımız torpağa, yurda möhkəm bağlılığını əməli işi, fəaliyyəti, müdafiə əzmi ilə təsdiqlədi.

Ötən illərdəki kimi, Vətən müharibəsində də AMEA-nın M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun hər bir əməkdaşı xalq-iqtidar-ordu vəhdətinin sarsılmazlığı üçün səyini əsirgəmədi. İnstitutun əməkdaşı Manaf Bəhmən oğlu Bəhmənli savaşın ilk günlərində şəhidlik zirvəsinə ucaldı. Manafdan əmanət qalan ailəsinə həm mənəvi, həm də maddi dəstək göstərildi. Bununla yanaşı, institutun tabe müəssisəsində şəhidə həsr olunan guşə yaradıldı.

Vətən müharibəsi dövründə institut tərəfindən "Silahlı Qüvvələrə Yardım Fondu"na müəyyən məbləğdə vəsait köçürüldü, cəbhənin müxtəlif istiqamətlərində döyüşən əsgərlərimizə isti geyim və digər zəruri vasitələr göndərildi.

İkinci Qarabağ müharibəsi parlaq qələbəmizlə başa çatandan sonra da institutumuz şəhid ailələrini, qaziləri, Vətən keşiyində dayanan əsgərlərimizi unutmur, onlara maddi və mənəvi yardımını əsirgəmir.

***Məhyəddin HACIYEV,***
***YAP-ın akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun ərazi təşkilatının sədri***

Xalq qəzeti.- 2021.- 8 oktyabr.- S.7.